◆ Bakı COP29-a hazırlaşır

# "Yaşıl paytaxt"ın yeni abadlıq ünvanı



## 200-dən çox ağac, 15 mindən çox kol, 2 fəvvarə, 2 dayanacaq, 4 enerjidoldurma məntəqəsi...

**Paytaxtda yeni parklar, bağlar, xiyabanlar salınır, ağaclar əkilir, yaşıllıq sahələri artırılır. "Yaşıl şəhər"ə çevrilən Bakıda son illər yaşıllaşdırma işləri daha da vüsət alıb. Xüsusən beynəlxalq əhəmiyyətli, mötəbər tədbirə - BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransına evsahibliyi edəcək bir vaxtda görülən abadlaşdırma işləri genişmiqyaslı xarakter daşıyır.**

Sakinlərin istirahəti, asudə vaxt keçirməsi üçün son illərdə salınan "Gənclik", "Çəmbərəkənd", "Yasamal" və Mərkəzi, bundan əlavə, onlarca məhəllədaxili parkları misal göstərmək olar. Salınan parklarda, bağlarda əhalinin istirahəti üçün hər bir şərait yaradılır, eyni zamanda əvvəlki yaşıllıqlar saxlanılmaqla, yeni ağac və kol bitkiləri də əkilir.

### "28 May"ın yeni siması

Son olaraq Bakı Dəmiryol Vağzalının və "28 May" metrostansiyasının qarşısında görülən abadlıq və yenidənqurma işləri də göz oxşayır. Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin yaxınlığında yerləşən ərazi Cəfər Cabbarlı meydanı kimi tanınır və ora göyərçinlərin yem üçün toplaşdığı məkandır.

Xatırladaq ki, dramaturq Cəfər Cabbarlının heykəltaraş Mirələsgər Mirqasımov tərəfindən hazırlanan heykəlinin 1982-ci il martın 23-də Ulu Öndər Heydər Əliyevin iştirakı ilə açılışı baş tutub. Abidə 2013-cü ildə yenidən bərpa edilib.

Bu ərazidə bir neçə ayda abadlıq işləri aparılaraq hazır vəziyyətə gətirilib. Ümumi sahəsi 3,5 hektar olan ərazidə minik avtomobillərinin hərəkəti ləğv edilərək, müasir tələblərə cavab verən avtobus, piyada və velosiped zolaqları yaradılıb. Köhnə döşəmə örtükləri ləğv edilərək, qranit bordürlər düzülüb və təqribən 22 min kvadratmetr qranit döşəmə örtüyü salınıb. Ərazidə ümumi sahəsi təqribən 2300 kvadratmetr olan yaşıllıq yaradılıb, İtaliyadan gətirilmiş 200-dən çox ağac, 15 mindən çox kol əkilib, işıqlandırma işləri aparılıb, müasir oturacaqlar quraşdırılıb. Həmçinin müasir tikinti norma və qaydalarına cavab verən 2 fəvvarə, 2 dayanacaq inşa edilib, elektrik avtobusları üçün 4 enerjidoldurma məntəqəsi quraşdırılıb.





















Əgər əvvəl metrodan çıxan paytaxt sakinləri və qonaqlar avtomobillərlə dolu yol, qarışıqlıq görürdülərsə, bu gün onları gözəl mənzərə qarşılayır. Həm metroya üz tutanlar, həm də stansiyadan çıxan hər kəs ayaq saxlayıb bu gözəlliyə tamaşa edir, quraşdırılmış oturacaqlarda əyləşərək nəfəslərini dərir, hava qəbul edə bilirlər.

### "Yaşıl hədəf"ə doğru

Bu gün paytaxtda görülən yaşıllaşdırma, abadlaşdırma işlərinə birbaşa nəzarət edən Prezident İlham Əliyev bu ərazidə görülən işlərlə də yerində tanış olub. Dövlət başçısının yüksək diqqət və qayğısı sayəsində bu gün ölkəmizin hər yerində, o cümlədən paytaxtda abadlıq-quruculuq işləri geniş hal alıb.

Sosial-iqtisadi inkişafa dair milli prioritetlər sırasında yer alan Azərbaycanın 2030-cu ilə qədər təmiz ətraf mühit və "yaşıl artım" ölkəsinə çevrilməsi istiqamətində həm Bakı şəhərində, həm də regionlarda görülən yenidənqurma, abadlıq işləri ölkəmizin qısa zamanda hədəfə çatacağından xəbər verir. "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində belə işlərin genişlənməsi turistlərin, Bakı sakinlərinin rahatlığı ilə yanaşı, ətraf mühitin qorunması, sağlamlaşdırılması, ümumilikdə, ekoloji mühitin yaxşılaşdırılması məqsədi daşıyır. Görülən abadlıq işlərinə isə heç kəs etinasız yanaşmamalı, ətraf mühitin qorunması, təmiz olması üçün əlindən gələni əsirgəməməlidirlər. Necə? Elə ən xırda nüanslara diqqət edərək. Məsələn, əlimizdəki tullantıları zibil qutularına ataraq, yaşıllıqları zibilləməyərək, gülləri qırmayaraq...

Hava çirklənməsinin qarşısının alınmasında mühüm rol oynayan yaşıllıqları qorumaqla, görülən abadlıq işlərinə qiymət verməklə ətraf mühitin sağlamlaşdırılmasında biz də rol oynaya bilərik. Bununla Bakının "yaşıl mərkəz"ə çevrilməsinə töhfə vermiş olarıq.

*Əsmər QARDAŞXANOVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*



